Firuzə Məmmədli - 70

Hörmətli Firuzə xanım!

Sizi - tanınmış şairimizi - yubileyiniz münasibətilə təbrik edirik!

Siz bədii yaradıcılığa erkən başlamısınız. İlk şeriniz orta məktəb illərində rayon qəzetində işıq üzü görüb. Mətbuatda müntəzəm çıxış etmisiniz. 1972-ci ildə "Gənclik" nəşriyyatı ilk kitabınızı - "Gümüşü damla"nı oxuculara təqdim edib. Sonra "Yoluma bahar düşüb", "Sənin ömrün", "Yetkinlik", "Bir qarış ucalıq", "Məni mənlə bilən dünya", "Dilək yaxasına dönnəm yenidən" və s. poetik toplularınız çapdan çıxmış və geniş oxucu auditoriyası qazanmışdır. 2002-2009-cu illərdə beşcildlik "Seçilmiş əsərləri"niz nəşr edilmişdir.

Siz qələminizi nəsr və bədii tərcümə sahəsində də də sınamısınız. 2005-ci ildə "Ömrün axarı" adlı povest, hekayə və publisistik yazılarınızdan ibarət kitabınız oxucuların ixtiyarına verilmişdir. Siz dünya ədəbiyyatı nümunələrinin dilimizə çevrilməsi sahəsində də səmərəli fəaliyyət göstərmiş, türk, rus, özbək, tacik, fars dillərindən tərcümələr etmisiniz. Sizin şeirlərinizdən nümunələr də türk, rus, ingilis, fransız, polyak, fars, gürcü və s. dillərə tərcümə olunmuşdur.

1992-ci ildə Türkiyənin Bursa şəhərində keçirilən "Türkcənin Uluslararası şeir şölenl"nin üç əsas mükafatından olan "Əlişir Nəvai" mükafatına layiq görülmüsünüz. Sonraki illərdə də dəfələrlə bəla festival və simpoziumlarda iştirak etmiş, bir sıra diplom və sertifikatla mükafatlandırılmısınız. Azərbaycan Yazıçılar Birliyinin İsa İsmayılzadə adına mükafatına, Rəsul Rza adına Fondun Beynəlxalq Rəsul Rza mükafatına layiq görülmüsünüz.

Siz həm də ədəbiyyatşünas alimsiniz. Dörd monoqrafiyanın, yüz alliyə yaxın elmi-publisistik məqalənin müəllifisiniz.

Əməkdaşlıq fəaliyyətinə Naxçıvan Pedaqoji Texnikumunda başlamısınız. Bir müddət ADPİ-nin Naxçıvan filialında müəllim işləmisiniz. 1970-ci ildən indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində dərs deyirsiniz. Hazırda universitetdə müasir Azərbaycan dili kafedrasının dosentisiniz.

Hörmətli Firuzə xanım!

Sizi bir daha yubileyiniz münasibətilə ürəkdən təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni - yeni yaradıcılıq uğurları arzulayırıq.

Azərbaycan Yazıçılar Birliyi

Badii haqiqatin poetikası

Azərbaycan poeziyasının görkəmli nümayəndələri sırasında poeziyasının orijinallığı, bədii təfəkkürünün genişliyi ilə heyranlıq doğuran, məxsusi yaradıcılıq ovqatı ilə diqqət çəkən istedadlı şairələrdən biri Firuzə Məmmədlidir. O, təkrarsız və tərəvətli obrazları, fərdi ifadə tərzi, mənəvi-əxlaqi təsəvvürlərindən qaynaqlanan lirik -epik qənaətləri, həmçinin digər orijinal poetik məziyyətləri ilə çağdaş poeziyamızın aparıcı simalarından birinə çevrilmişdir. Onun poetik düşüncələrinin fərdiliyi yaradıcılıq simasını müəyyənləşdirməklə yanaşı, əsərlərinin ideya - bədii, estetik dəyərini artırır. Bu mənada, qətiyyətlə demək olar ki, Firuzə Məmmədlinin poetik nümunələri Azərbaycan poeziyasını yeni ideyalarla, zamanın ruhuna uyğun yüksək qayəli mövzularla, vətəndaşlıq keyfiyyətləri ilə zənginləşdirən poeziyadır. Bu poeziya öz xalqını üzüdərkə, gücünü, qüdrətini duymağa, oyanışa, mənəvi yüksəlişə, vətənə, dövlətçiliyə sədaqətə, yurdun hər qarış torpağı üçün mücadiləyə və vətənin bütövlüyü uğrunda şərəfli döyüşə səsləyir. Onun şeirlərində tarixi haqsızlıqlara, riyakar, ikiüzlü siyasətə, cəmiyyətdəki ədalətsizliklərə qarşı bir barışmazlıq ovqatı yaşanır.

"İntiqamı sərt olacaq o günün" şerində bu barışmazlıq mövqeyi üsyankar bir ovqatı ehtiva edir.

Əndacaq günahları haqq ozu,
Öz rəngینə boyanacaq ağ, qara.
Tükənəcək siyasətin saqqızı,
Boylanacaq kaspilərə, saqlara.

Şair özünəməxsusluğunun yetkinləşməsi kirk "mən"ın də yetkinləşməsinə, onun fəaliyyət sərhədlərinin lirik və epik müstəvidə daha da genişlənməsinə rəvac verir. Şeirdə tarixi haqsızlıqlara mənasibət vətənpərvərlik zəminində daha ehtiraslı boyalarla, obrazlı təfəkkürün məxsusi, özəl cizgiləri ilə təqdim olunur.

Sökülecək Qarabağın dağları,
Her qatından alp ərənlər qopacaq.
Daxil düşmüş iskit, qıpçaq, saqların
Nərəsindən daş dələnlər qopacaq,

Daha sonra lirik "mən"ın ruhunda yurdun bütövlük himni səslənir. Tarixin yaddaşı diksinir.

Silkinəcək Dərbənd, Göyçə, Borçalı,
Üst -başından yabançını çırpacaq.
Ay-ulduzlu bayrağımız ucalıb
Göylərindən talançını çırpacaq.

Zamanın tələtümləri, azadlıq mücadiləsinin kəskinliyi şairin yeni ifadə tərzində, obrazların rəngarəngliyində, mövzuya uyğun formanın əlvanlığında, fərdi duyumun poetik detallarında gerçəkləşir. Bu şerin ruhuna üsyankar, lakin ritorikadan uzaq, səmimi bir pafos hakimdir. Şairin poetik qüdrəti ictimai həyatın bütün sahələrinə nüfuz edərək bədii ümumiləşdirmədə, poetik obyektin dəyərləndirilməsində, obrazlarla təsvirdə canlı müşahidələrə, predmeta yaradıcı müdaxiləyə əsaslanır. Onun poeziyasında naturalist təsvirə rast gəlmək mümkün deyil.

Firuzə Məmmədlinin üslubu özünəməxsusluğu və yaradıcılıq fərdiliyi yetkinlik mərhələsinə çatdandan sonra da həmişə inkişafda, təndənsiyalarla dolu olmuşdur. Onun yeni keyfiyyətlər kəsb edərək formalaşmaqdadır. Təkamül və inkişaf böyük istedadın mahiyyətindən doğan prosesdir. Bu mənada Firuzə Məmmədlinin fərdi üslub baxımından yaradıcılıq axtarışları əyanilləşən poetik zərurətdir. Bu bədii axtarışların yeni-yeni obraz, metafora, epitet və digər üslubi vasitələrin üzə çıxması ilə sonuclanması, həmçinin mövzu və forma dolğunluğu ilə diqqət çəkməsi təqdir olunasıdır. Şairinənənəvi şeir formalarında qələmə aldığı poetik nümunələri ilə yanaşı, sərbəst və hecayla sərbəstin sintezi olan qarışıq vəzndə yazdığı şeirləri də məhz orijinallığı, modernizmi, məzmun və forma yeniliyi ilə diqqəti cəlb edir. Firuzə Məmmədli sözün həqiqi mənasında böyük sənətkardır. Onun poetik kəşflərini, tapıntılarını bütövlükdə poeziyamızın uğuru kimi səciyyələndirmək olar. Məlum mövzunun qeyri-adi məzmunda, yüksək poetik-fəlsəfi tutumda orijinal təqdimatı, heyrət doğurur. Həqiqi sənətkarın, böyük istedadın qüdrəti məhz belə misralarla əyaniləşir.

Her gün ölüm ayağıdır,
Ömür - ölümün oyağıdır.
Qara rənglerin ağıdır,
İnanmırsan, kefənə bax.

Bu misraların qeyri-adiliyini şərtləndirən ən başlıca xüsusiyyət odur ki, burada şair minillik Şərq poetikasının əsasını təşkil edən müdrik islam fəlsəfəsinin, müqəddəs mahiyyətini dörd misrada poetik kodla təqdim edə bilmişdir. Bu misralarla şair təkcə poetik istedadının qüdrətini deyil, həmçinin maxsus olduğu dilin zəngin ifadəliliyini də sərgiləyir. Bu misraları bədii-fəlsəfi düşüncəmizin uğuru da adlandırmaq olar.

Rəvan və təbii üslub, şeirlərinin vəzn, qafiyə, forma, bölgü və poetik stukturun digər elementlərindən məharətlə istifadə etmək sərişləsi onun sənətkarlıq yetkinliyini şərtləndirən keyfiyyətdir. Obrazlı düşüncə, əsərlərinin bədii təsvir və ifadə əlvanlığı, zamanla sləşən mövzuların seçimi və onların yüksək poetik vüsətlə işlənməsi, həqiqətən də onun yaradıcılığının sənətkar, vətəndaş məziyyətlərini təqdim etməklə yanaşı, parlaq istedadının təbii imkanlarını da üzə çıxardır. Bu imkanlar isə lirik jannn, şerin imkanları kimi reallaşır, üslub yaradıcılığı üçün geniş üfüqlər açır, həm də əsl sənət nümunələrinin yaranmasına səbəb olur.

Firuzə Məmmədli poeziyasının əsas atributlarından ən başlıcası torpaq, yurd sevgisi, vətənpərvərlik, xalq məhəbbəti və yaddaşa qayıdış duyğusudur. Bu ovqat hər "mən"ın vətəndaş xüsusiyyətinin, xarakterinin açılmasında böyük önəm daşıyır.

"Şəhid həyatı" şerini yüksək sənətkarlıq və vətənpərvərlik müstəvisində uğurlu sənət nümunəsi kimi təqdim etmək olar:

Görürəm, burda da tanha deyilsən,
Dörd yanın qanına bələnib yatır.
Bu yatan ölümdür, sən ha deyilsən,
Əsgərsən, həyatın - şəhid həyatı.

Bu şeir poeziyamıza vətən, torpaq, qeyrət əri qatan ən dəyərli poetik nümunələrlə bir məqamda, bir ucalıqda qərar tutmağa layiqdir. Bütövlükdə ədəbiyyatımızın, mənəviyyatımızın, milli düşüncəmizin oyünə biləcəyi poetik məqamdır bu misralar. Şəhidliyin müqəddəsliyinin son dərəcə yüksək bədii-fəlsəfi ehtivası heyrət doğurur və bəla heyrətamiz poetik məqamı kəşf edib poeziyamıza bəxş edən şair Firuzə Məmmədlidir.

Onun şeirləri osi poeziyanı şərtləndirən bütün meyarlara uyarlıdır.

Qala divarındakı
qədim yazıdır
gözəl çöhrə.
Cibləri bənk kişilər
pak, ya napak kişilər
qala divarlarındakı
yaziya qısqanırlar
ciblərini.

Zahirən sadə təsir bağışlayan bu metaforaların alt qatında inca mətləblər, böyük və dərin haqiqətlər gizlənir. Poetik nümunənin diqqət çəkən məziyyəti ondadır ki, bu obrazların konkret fikir yükünün açılması oxucunun intellekti ilə mütənasibdir. Burada metaforaların qarşılaşmasından alınan ahəngdarlıq məzmunun zənginləşməsinə xidmət edir.

Bu şeir zəngin poetik təfəkkürün, intellektual düşüncənin bədii sənət müstəvisində uğurlu təzahürüdür.

Şairin yaradıcılığı ovqat və mövzu aspektindən nə dərəcədə əlvandırsa, poetik fikir, hiss və düşüncələri də bir o qədər rəngarəng və səmimidir. Xəlqiliyin, müasirliyin və modernizmin hormoniyasından doğan bu misralar bədii mündəricisinə görə həqiqi sənət nümunəsidir:

Novruz bayramını
sevindirmək istədim
evimdə.
Bazara girəndə
ciblərim
başım ikiəlli tutdu.

Firuzə Məmmədlinin şeirlərində həyatın bütün tərəflərinə poetik baxış genişniyasılı və çox aspektlidir. Bu poeziya xalqımızın dünənini və bu gününü, onun maddi-mənəvi dəyərlərini, arzu, düşüncə və qayğılarını sənətkar məharəti ilə ehtə edir. Özünəməxsusluq baxımından elmi -nəzəri söhbət açmağa onun yaradıcılığı geniş, dolğun materiala malikdir. Modern düşüncəyə yazılmış əsərləri tədqiq və təhlil üçün kifayət qədər imkanlar açır.

Görkəmli şairin yaradıcılığı dərin ideya, mənəvi-əxlaqi, ictimai baxış nümunəsi olmaqla bərabər, yüksək ədəbi zövq, yetkin sənətkarlıq və poeziya nümunəsidir. Özünəməxsus dəyərlərlə yetkinləşmiş, sənətkarlıq axtarışları ilə cilalanmış bu poeziya çağdaş poeziyamızın ədəbi xəzinəsində öz layiqli yerini tutur.

Balayar SADİQ

Şair qadınıq

Gəlsək, təzə gəlir, tər gəlirik biz,
Hissə düşüncəyə yar gəlirik biz.
Həya, abir gəlir, ar gəlirik biz
Şerin yaşmağıyıq, nazıyıq elə.

Möhürdü, basılır söz alnımıza,
Dözüb, alışıraq biz alnımıza.
Tanrıdan aşağı öz alnımıza
Əlimizlə qonan yazıyıq elə.

Bizi görsələr də, görməsələr də,
Çəkir çöhrəmizi gömməsələr də,
Bir qala bürcünə hörməsələr də,
Bu bəxtdən, taledən razıyıq elə.

Zamanıq; yaxına, dosta ömürük,
Alışdıq - ocağıq, söndük - kömürük.
Sözdə doğuluruq, sözdə ölürük,
Qismətin çoxuyuq, azıyıq elə.

İstiyik, oxşasa doğma əl bizi,
Kövrəyik; sınıq, əysələr bizi.
Naləyik, fəryadıq, çalsa dərd bizi,
"Yanıq Kərəmi"nin sazıyıq elə.

Qardaşa qardaşı, övlada ata,
İgidik cəbhədə, erik davada.
Bir çınqı işiğa, bir çınqı oda
Qatın, qəlbinizin közüyük elə.

Üzdə söz-söhbətin, içdə adınıq,
Şair dodağımısuq, şair qadınıq.
Nə bir şöhrətinik, mükafatınıq...
Di gəl, səbrimizin diziyik elə.

***

Öldürürsən, diri baxır,
Hər qaş altdan biri baxır.
Gözlərin nə iri baxır,
Gözlərini dərd böyüdüb?

Tanrı qəmə büküb verib
Kirpiyinə tikib verib.
Bizə iki-iki verib,
Sənincə dörd böyüdüb.

***

Baş tutmasa bu sevda,
Hönkürüb gedəsiyəm.
Oda düşən qəlbimi
Söndürüb gedəsiyəm.

İsinməsəm istimə,
Kor olacam tüstümə.
Düz dünyanı üstümə
Güldürüb gedəsiyəm.

Əcəl kəssə yanımı,
İçəcəyəm qanımı.
Dirilsə, bu canımı
Öldürüb gedəsiyəm.

Nə fayda

Qədiri yox, qiyməti yox bu şerin,
Yaxasına gul taxla, nə fayda?
Öz-özümdən küsüb durum-durmayım,
Ya ovunum bu nağıla, nə fayda?

Havalanıb, qanadlanıb uçurlar,
Görən kimi əyləşirlər, qucurlar?
Kimə qalır əziyyətlər, əcrlər,
Deyək elə mən fağıra, nə fayda?

Yollarımda taləydimi, bilmirəm.
Düzüb-qoşaq fəlakdimi, bilmirəm.
Əvvəlindən beləydimi, bilmirəm,
Uyub durdum bu ağıla, nə fayda?

Əlindədi şehr günüm, sirr günüm,
Zikr günüm, dua günüm, pir günüm.
Tutula hər, onsuz keçən bir günüm
Lap şəkərə, lap noğula, nə fayda?

Biçib-töbkdü doğru-yalan bu ömrü,
Şeir adda eşqi - haram bu ömrün,
Məndən sonra ona qalan bu ömrün
Sevincindən qəm doğula, nə fayda?!

Dünənki

İnnan belə şənbə-bazar, - fərqi yox,
Ömrün bezək-düzəyinə sərgi yox.
İşsiz günün, bekar günün dərdi yox,
Açan səhər, gələn səbah - dünənki.

Bişir, düşür, hərlən, firlan, otur, dur,
Hər anını bir saata ötür, dur.
Nə tapmasan ömsuz keçən bir, dur,
Oruc, namaz, savab, günah - dünənki.

Nə vecinə, saralan kim, solan kim,
Gördüyünə haqiqət kim, yalan kim,
İnnan belə ela harlan dolan ki,
Görən desin, - bu qız, vallah, - dünənki.

Dünənkinin gözü yoxdu sabahda,
Bir özünütekrar gözlər qabaqda.
Dünənkini yamanlama nahaqdan,
Başın üstdə - qadir Allah dünənki.

***

Mənə tanış gəlmirsən,
Yaddaşım əzab çəkir.
Tutmusan əllərimdən,
Əllərim cəza çəkir.

Nə yaxınıq,nə uzaq,-
Gah uduaq, gah uduzaq.
Özünə çəkən uşaq
Bir az da bizə çəkir.

Dostmuyuq, tanışmıyıq,
Hər nəyik, danışmayaq.
Durmuşuq tanışsayaq,
Yox, bizi nəsə çəkir.

***

Vaxtın çəkçevirində
Hər an - bir zərbə kimi.
Yamanlığın üzündə
Yaxşılıq - pərdə kimi.

Qismət mənə üz tutdu,
Əyri idi, düz tutdum.
Köhnə yaram köz tutdu
Bu təzə dərdə kimi.

Söz-söz ac oldu mənə,
Sirri açıldı mənə.
Dünya uçuldu mənə
Namərddən mərdə kimi.

Rafiq Yusifoğlu - 60

Hörmətli Rafiq müəllim!

Sizi - tanınmış şair və ədəbiyyatşünas alimi 60 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Siz ədəbi fəaliyyətə erkən başlamısınız. İlk qələm təcrübələriniz 1966-cı ildə işıq üzü görmüşdür. "Yurdum - yuvam", "Ətirli dünyam", "Ocaq yeri", "Qam karvanı", "Həsrət köçü", "Böyük arzuya gedən yol", "Ana dilim", "Fişəng yağışı", "Eşqim qarlı yollarında" və s. bədii kitablarınız nəşr edilmiş və geniş oxucu auditoriyası qazanmışdır. Siz tərcüməçi kimi də səmərəli fəaliyyət göstərirsiniz. Dünya uşaq ədəbiyyatı nümunələrindən ibarət on tərcümə kitabının müəllifisiniz.

Sizin çoxşaxəli yaradıcılığınızın bir sahəsi də elmi-tədqiqat işidir. Siz filologiya elmləri doktoru, professorsunuz. "Azərbaycan poeması, xətaraşlar, perspektivlər" monoqrafiyanız, ali məktəb tələbələri üçün "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı" kimi dərs vəsaitlərinizdən tədris sistemində uğurla istifadə olunur. Siz uşaqların sevimli şairisiniz və 1985-ci ildən uşaqların sevimli jurnalı "Göyərçin"də çalışırsınız. 1997-ci ildən həmin jurnalın baş redaktorusunuz. 2005-ci ildə əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüsünüz.

Hörmətli Rafiq müəllim!

Sizi bir daha 60 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

Azərbaycan Yazıçılar Birliyi

Sözün keşiyində

Rafiq Yusifoğlunun imzası ədəbi və elmi ictimaiyyətə yaxşı tanışdır. O, istər şair, istərsə də ədəbiyyatşünas kimi çoxşaxəli yaradıcılığında sözə, söz sənətinə böyük məsuliyyət duyğusu ilə yanaşır. Odur ki, R.Yusifoğlunun həm ədəbi, həm də elmi müstəvidə özünün oxucu auditoriyası var. O, belə bir auditoriyanı yaratmaqdan ötrü illərdən bəri əqli, ruhi potensialını, ilham və zəhmətini qoyub...

Pedaqoji təhsilini başa vurandan sonra Sumqayıtda tərbiyəçi-müəllim, müəllim işləyən Rafiq Yusifoğlu işləyə-işləyə təhsilini davam etdirmiş, aspiranturanı bitirmiş, Azərbaycan poemasının inkişaf problemi ilə bağlı namizədlik dissertasiyası yazıb müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır (1984). Sonralar elmi fəaliyyətini davam etdirən R.Yusifoğlu doktorluq dissertasiyasını da uğurla müdafiə etmiş, hazırda Sumqayıt Dövlət Universitetinin professoru kimi tələbə gənclərimizin yetişməyinə bir sıra dərslik və monoqrafiyaları ilə yardımçı olmaqdadır. Əlbəttə, biz 60 yaşını tamamlayan bir Azərbaycan ziyalısının - şair, alim, pedaqoq və publisistin indiyə qədər gördüyü işlərinə ayrı-ayrılıqda dəyər vermək imkanından məhrumuq, çünki bu, bir qəzet məqaləsinə sığışan yığcam olaylar təsnifati deyil. Rafiq Yusifoğlu imzası öncə səmimi, büllur dilə, aydın düşüncəyə malik bir şairin varlığını təqdim edir. Yeni, əslində mən də bir çoxları kimi bu imzanın sahibini şair kimi tanımışam. Odur ki, daha çox onun poetik dünyaduyumuna özümüzü köklməyimiz məqsədyönlüdür:

Biz köçəndə bu dünyada
Qalacaqmı ömrün izi?
Var-dövlət yığmaqdan ötrü
Xərcləyirik ömrümüzü.

Şairin qənaətinə görə (didaktik olsa da) "ömrün izi" var-dövlət yığmaqla qalmır. İz yaşatmağın yolu sözdən keçir, ömrün izi yalnız sözdə əbədiləşir. Odur ki, söz sahiberi var-dövlət sahiblərindən daha "uzun ömürlüdür". Şairlik, həyata şairanə baxış ise fərqli bir yaşam tərzidir:

Çılğın ilhamımız şahə qalxanda
Mast olduq bir qızın məhəbbətindən.
Biz qərib dunaya gəndən baxanda
Kimsə kabab çəkdi duma ətindən.

R.Yusifoğlunun şeirlərinda Azərbaycan türkcəsinin şirinliyi var. Misralar axıcı, rəvan, kəlmələr, ifadələr aydın, anlaşıqlı və yeri-yerinda. Hiss olunur ki, o, uşaqlıqdan xalq ədəbiyyatı çevresinde, folklor mühitinda böyüyüb, boya-başa çatb. İndi işğal altında gözləri yol çəkən Qubadlının el-oba adətləri, etnografik dəyərləri, folklor mühiti Rafiq Yusifoğlunun şair, alim kimi yetişməyinda təbii ki, az rol oynamayıb. İlkin qaynaq, yaddaşa ilk yüklenan informasiya bir ömür boyu insanı tərk etmir. Bu həqiqətin mantiqidir ki, şair yurd yanğısına səmimi etirafını da qoşur:

Yadıma dağların, düzlerin düşür,
Kül altda uyuyan közlerin düşür,
Yoluma dikilen gözlerin düşür,
Qubadlım, biz sənsiz sönmüş ocağıq,
Nə üzle qoynuna qayıdacağıq?!

Mənim təsəvvürümdə yurd itkisinden, torpaq həsrətinden ağır dərd yoxdur. Şairin bu mövzuda yazdığı şeirlərdə kədərlə yanaşı, həqiqi vətəndaşlıqdan gələn bir üsyankarlıq da var. Bu üsyankarlıq ise "Vətənin haqq-sayında" ümumiləşdirilir:

Keşikdə durmuşam, zarafat deyil,
Her vaxt sayıq olam gərək yerimda.
Mənə ağır gələn avtomat deyil,
Vətənin haqqıdır çiynlerimda.

Rafiq Yusifoğlunun məhəbbət şeirlərinda ince bir lirizm, təsirli bir ovqat var. Bu ovqat insanı sevgi aleminə, sevib-sevilmək dünyasına aparır. Belə şeirlər xüsusen genc oxucularımıza saf məhəbbət, təmiz sevgi aşılayır:

Yenəmi ayrılıq yelləri əsdi? -
Baş-başa qalmışıq azablar ilə.
Sevgiden temenna ummaq əbəsdi,
Sevginin əvəzi sevgidir elə...

Mən də bu fikirlə razıyam ki, "sevginin əvəzi sevgidir elə". İnsanın mənəvi dünyasının bəzəyi eşqdir, məhəbbətdir. Bu ali hissin, duyğunun ise əvəzleyicisi, başqa sözlə, alternativi yoxdur. R.Yusifoğlunun sevgi şeirləri şablondan, süzülmüş və özülmüş deyimlerdan uzaq olduğu üçün insanı tərpedir, duyğulandırır.

Şairin balalarımız üçün yazdığı şeirlerin de çağdaş poeziyamızda öz yeri, öz dəyeri var. Illerden beri "Göyərçin" dergisinin nəşrinə rəhbarlik eden R.Yusifoğlu uşaqların hem de sevimli redaktorudur. Bu dergide derc olunan yazılar baş redaktor kimi mehz onun ədəbi zövqünde qaynaqlanır.

R.Yusifoğlu bu illeri dolu sünbül kimi yola salıb. Onun çoxsahəli və çoxşaxəli yaradıcılığında ədəbiyyatımıza, elmimize namusla xidmet eden bir ziyalının obrazı canlanır. 60 yaşın tamamında hesab edirik ki, R.Yusifoğlunun öyünməyə, qürrələnməyə haqqı var - çünki haqdan gələn sözün keşiyinde illerden beri belə layəqetlə dayanmağın özü hər qələm adamına nəsib olmur...

Adil CƏMİL